**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**QƏRAR**

№ 12/11

Bakı şəhəri 11 iyun 2014-cü il

Azərbaycan Milli Elmlər Akademiyasının
Abbasqulu ağa Bakıxanov adına
mükafatının təsis edilməsi haqqında

2014-cü ildə Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair, Azərbaycanın qədim sülalələrindən birinin nümayəndəsi Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 ili tamam olur. Milli ictimai fikrin, elmin və mədəniyyətin inkişafındakı xidmətləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 12 fevral 2014-cü il tarixində "Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi, eləcə də elmin inkişafına böyük töhfələr verən, tarix, fəlsəfə, sosiologiya, hüquq, beynəlxalq münasibətlər və şərqşünaslıq elmləri sahəsində yüksək səviyyəli tədqiqatlar aparan alimlərin əməyini daha da stimullaşdırmaq məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu ağa Bakıxanov adına mükafatı təsis edilsin.
2. Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu ağa Bakıxanov adına mükafatı haqqında əsasnamə (əlavə olunur) təsdiq edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə
AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü
Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT